**AZƏRBAYCAN ƏDƏBİYYATI**

***Ortaq başlanğıc və İntibah dövrü***

# Nizami "Xəmsə"sində Quran qissə motivləri bədii-estetik sənətkarlığın qaynağı kimi

**Xanəli Babayev**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.

**Annotasiya.** Məqalədə Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasında Suleyman peyğəmbərlə bağlı hekayətə əsaslanmaqla Allaha inam və zəhmətə bağlılıq motivinin böyük şair tərəfindən məharətlə təqdimi araşdırılmışdır. Nizami peyğəmbər səviyyəsində şəxsiyyətin zəhmətkeş insanın müdrik mövqeyindən öyrənməyi insanın ucalığı kimi təqdim edir.

Şair "Süleyman və qoca əkinçinin hekayəsi"ndə kiçik qəhrəman – qoca əkinçinin inam məsələsindəki möhkəm mövqeyini Suleyman peyğəmbərin şübhə və ümidsizliyinə qarşı qoymaqla sadə əməkçi insanın düzgün və qalib məqamını tərənnüm etmişdir. Şair sənətin bədii-estetik mahiyyətini verməklə yanaşı Quranın müvafiq ayələrinin şərhini də təqdim etməyə nail olmuşdur.

**Açar sözlər:** peyğəmbər hekayəti, əkinçi, Allaha inam, zəhmət, kiçik qəhrəman

**Məqalə tarixçəsi:** göndərilib – 19.07.2022; qəbul edilib – 03.08.2022

# The story motives of the Quran in Nizami's "Khamsa" as a source of literary and aesthetic art

**Khanali Babayev**
Doctor of philological sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.

**Abstract**. The article examines the skillful presentation by the great poet of the motive of faith and devotion to God in Nizami Ganjavi's poem "Treasure of Secrets" based on the story of the prophet Solomon. At the level of a prophet, Nizami presents the study of personality from the wise position of a hard-working man as the greatness of man.

In "The tale of Solomon and the Old plough-man", the poet praises the right and victorious position of the simple hardworking man, by revealing the strong position of the little hero, the old plough-man in the matter of faith, with the doubts and despair of the prophet Solomon. In addition to giving the literary and aesthetic essence of art, the poet managed to present the interpretation of the relevant verses of the Qur'an.

**Keywords**: Prophet's story, faith in God, plough-man, hard work, little hero

**Article history: received – 19.07.2022; accepted – 03.08.2022**

## Giriş / *Introduction*

Məqalədə böyük Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığında bədii söz sənətinin fikir, ideya və sənətkarlıq məsələləri, bir çox qaynaqlarla yanaşı qissə mövzuları və Quran ayələrinə istinad edilməklə də öyrənilir.

Quran qissələrinin, qissə epizod və motivlərinin bədii əksi "Xəmsə"nin bütün poemalarında yerini tapır. İnsan həyatı, onun mənəvi aləminin zənginliyi, habelə həyat və inamla bağlı ceşidli əhvalatları çevrəsinə alan bu qissələr Nizaminin yaradıcılığında iki şəkildə təqdim edilmişdir: ayrı-ayrı Quran əhvalat və ya epizodları yeri gəldikcə poemaların məzmununa uyğun surətdə vermək, həmin əhvalat və epizodlara işarələr etməklə bədii sənətin tələbləri daxilində yaradıcılıq məharətini göstərmək. Hər iki halda Nizami dühasının parlaqlığı acıq-aydın görünməkdədir.

İnsanın mənəvi, əxlaqi-didaktik və dini tərbiyəsini yaxşılaşdırmaq, çağın tələbləri baxımından şair sözünün kəsərini artırmaq ücün qələmə alınmış "Sirlər xəzinəsi"sində Quran əhvalatları və Məhəmməd peyğəmbərin hədislərinə müraciətlər olduğu kimi müəllifin məntiqi nəticələri də yerində və mənalıdır. Əsərin üçüncü məqaləsində və onuncu məqaləsində peyğəmbərlər qissəsindən iki əhvalat verilmişdir: "Süleyman və qoca əkinçinin hekayəsi", "İsanın – Allahın ona salamı olsun-dastanı" [6, s.42-43, s.61-62; 7, s.96-93, s.133-134].

Birinci hekayət Quran qissəsindən istifadə məsələsində daha xarakterik olduğu üçün onun üstündə ayrıca dayanmağı məqsədəuyğun sayırıq.

Burada "Suleyman və qoca əkinçinin hekayəsi" örnək götürülmüş, Peyğəmbərlərin həyatından bəhs edən hekayələrdə sadiqlik və zəhmət əxlaqi kateqoriyaları dəyərləndirilmişdir.

## Əsas hissə / *Main Part*

Nizaminin "Sirlər xəzinəsi"ni üçüncü məqaləsi "Dünyanın qəzaları haqqında"dır. Suleyman peyğəmbərlə bağlı şairin təqdim etdiyi epizodun məzmunu belədir: "Qayğılardan azad bir gündə Süleymanın beyninə belə bir fikir gəldi ki, məmləkətinin taxtını səhrada qursun. Səhrada taxtı qərar tutmuş Süleyman bu bomboş məkanda bir qoca əkinçi gördü. Əkinçi evindən son bir ovuc toxumu da götürüb hər tərəfə toxum səpir və səpdiyi hər dənədən sünbül göyərirdi. Süleyman bundan heyrətlənərək əkinçiyə nəsihət verməyə başladı ki, bu qədər taxılı səpməkdənsə özü yesə yaxşıdır. Onun nə beli var, nə suyu. Süleyman heyrətini gizlətməyərək soruşur ki, biz suyu bol yerləri əkmişdik, lakin əkdiyimizdən nə götürdük? Biçarə kəndli toxum yandıran tarlada susuz və təşnə nə hasil edəcək?

Qoca cavabında bildirir: "Torpaq və suyun əlverişli olub-olmaması məni narahat etmir. Mənim quru və yaşla işim yoxdur, toxum məndən, bəsləmək isə Tanrıdan. Suyuma alnımın təri, belim isə dırnaqlarımdır. Mən nə ölkə, nə də hökmranlıq dərdi çəkirəm" [6, s.42-97].

Əkinçinin dediyi hikmətli sözlərdə birbaşa hökmdar Süleymana aid olan nəsihətlər vardır. Bu nəsihətlərdə Allaha möhkəm inamı ön plana çəkən xəbərdarlıq və Onun əta etdiyini qiymətləndirməklə şükranlıq və razılıq duyğularını unutmamaq vurğulanır:

*Mənə xoş xəbər göndərən (Allah)*
*bir dənin əvəzinə yeddi yüz dənimi verəcək.*
*Dəni şeytanın oyunu ilə əkmə,*
*qoy bir dəndən yeddi yüz bar verilsin....*
*Dərya yüz çayla sakitlik tanıdığı halda*
*arx bir sellə hər tərəfə səs salır....*
*Dövlətli gərək ağır olsun ki,*
*naz-nemət onu sıxmasın.* [7, s.42-43]

Epizod Nizaminin zəmanə hökmdarlarının adına yönəltdiyi və əkincinin müdrik sözlərinin ünvanladığı Süleyman qüdrətlilərinə aid edilən eyhamlarla bitir [6, s.43]:





*Naza dözmək hər kəsin işi deyil,*
*Hər qarın sirr daşıya biləm.*
*Naz etmək demirəm, bu xamlıq olardı.*
*Naz çəkmək Nizaminin işidir.*

Göründüyü kimi, hekayətin ideyası əsərin ümumi məzmununa uyğun gəlir və didaktik nəsihətli notlarla tamamlanır. Dünyada insanla bağlı baş verən hadisələr üçün ən parlaq nümunələrdən biri kimi "Süleyman və qoca əkinçinin hekayəsi"nin seçilməsi təsadüfi deyildir.

Dünyanın qəzaları haqqındakı bu məqalədə toxunulan məqamlar çeşidli və rəngarəngdir: Süleyman mülkünün aqibəti, fələk, torpaq və insan münasibətləri, insanın qocalması, insanın istəyinin yerinə yetirilməsi, insanların bir-birinə həsəd aparması, dövlətə və mülkə aludə olmamaq, torpaqdan yaranmış insanın torpağa qayıtması, qiyamət gününün hesabı və s.

Bu məqalədə Nizaminin son sözü belədir:

*Ədəbin toxumu nədir? – Sədaqət əkmək,*
*Sədaqətin qiyməti nədədir? – Onu qorumaqda*
*Əkinçilər dənələri ona görə becərib bəsləyirlər ki,*
*Bir gün gələr, onun barını yeyərlər.* [7, s.96]

Beləliklə, müəllif qayəsi iki mühüm fikrin yeridilməsinə xidmət edir: sadiqlik və zəhmət. Peyğəmbərlər həyatından seçilmiş hekayətlə bu iki əxlaqa kateqoriyanı möhkəmləndirmək ilahi qüdrətlə bağlanır. Allaha inamda sadiqliyi pozmuş Süleymanla bağlı əhvalat örnək götürülməklə şair Quran misallarının nümunəsindən istifadə etmişdir. Hər bir işdə Allahın köməyini unudan Süleyman Nizami üçün ən gərəkli obraz olmuşdur. Bu məqamı çatdırmaq üçün qoca əkinçi də hekayətə daxil edilmişdir. Nizami tərəfindən məhz Süleyman haqqında hekayətin seçilməsi onun peyğəmbərlər arasında ən çox möcüzəli səciyyələrə malik olması ilə bağlıdır. Quran qissələrində verilmiş Süleyman başlıca cizgilərilə yadda qaldığı kimi Allahı unutqanlığı və buna görə tövbələnməsi də göstərilmişdir. Sad surəsinin 31-33-cü ayələrində oxuyuruq.

*(Bir gün axşamüstü ona cins çapar atlar göstərildiyi zaman o dedi: "Bu atlara olan məhəbbət məni Rəbbimin zikrindən yayındırdı. O qədər onlara tamaşa etdim ki, günəş pərdə arxasına keçdi. Atları mənə qaytarın" (Atlar gətirildikdən sonra) onların qıçlarını və boyunlarını sığallamağa başladı).*

Təfsirlərdə bu ayələrin üç variantda anlamı bildirilir: Süleyman peyğəmbərin Allahı unutması, atları öldürmək istəyi və Süleyman peyğəmbərin Allah tərəfindən imtahana çəkilməsi. Bu anlamlara uyğun olaraq 33-cü ayədəki ... ifadəsinin tərcüməsində dolaşıqlıq yaranmışdır. Məs. M.Osmanov onu "stal podrezat" ("kəsməyə başladı") və ayəni ".. Vernite koney ko mne". On stal podrezat im podjilki i rubit qolovu" (".. Onları mənə qaytarın". O (atların) dizlərini kəsməyə və kəllələrini doğramağa başladı [3, s.86, 290].

Fikimizcə, birinci və üçüncü anlam bir-birini doğruldur. İlahi tərəfindən verilən böyük möcüzələrə və mülklərə nail olmuş Süleyman peyğəmbər atlara aludə olmuş, Allahı anlamağı unutmuşdu. Başqa sözlə, o, şeytan vəsvəsəsinə uymuşdu. Bu, Süleyman üçün bir imtahan idi. Təsadüfi deyil ki, növbəti ayədə deyilir:

(Biz Süleymanı imtahana çəkdik. Taxtının üstünə bir cin oturtduq. Sonra o (tövbə edib yenidən öz mülkünə) qayıtdı) (Sad, 34).

Nizaminin hekayəsində "alın tərin"i toxumu becərən suya, "dırnaqlarını" torpağı şumlayan "belə" bənzəyən qoca əkinçi Allaha ümüdlə yaşadığı kimi hər işin onun köməyilə yerinə yetiriləçəyinə inanır [6, s.7]:

*Mənim quru və yaşla işim yoxdur,*
*Toxum məndən, bəsləmək Tanrıdandır.*

*Mənə xoş xəbər göndərən (Allah)*
*Bir dənin əvəzinə yeddi yüz dənimi verəcək.*

Müdrik qocanın dililə deyilmiş aşağıdakı müəllif sözləri daha dərin mənalı məqama işarə edir [6, s.43]:

*Dəni şeytanın oyunu ilə əkmə, qoy*
*bir dəndən yeddi yüz bar verilsin.*

Beləliklə, yuxarıda göstərdiyimiz kimi Sad surəsinin 31-33-cü ayələrinin təfsirçilər tərəfindən fərqli anlamına Nizaminin münsibəti də bildirilmişdir:

Süleyan peyğəmbər Allahı zikr etməyi unudaraq atlara aludə olmuşdur. Bu isə şeytan vəsvəsəsinin nəticəsidir.

Qocanın sonrakı aydınlaşdırma və məsələlərinin sonucunda deyilir ki, "dövlətli gərək ağır olsun ki, naz-nemət onu sıxmasın". Nizaminin bu hekayə üçün seçdiyi sözönü etik-əxlaqi tərbiyənin bir cəhətini irəli sürdüyü kimi, batini bir mənanı özündə saxlayır. Şair burada iki məsələni vurğulayır: sədaqəti qorumaq gərəkliyi və gələcək üçün zəhmətin bəhrəsini qazanmaq. Nizaminin toxunduğu sədaqət yüksək mənada başa düşülür. Bu, Allaha sadiq olmaq anlamındadır və gətirilən hekayət Süleyman peyğəmbərin misalında sədaqəti pozduğuna işarə edir. Şübhəsiz, o, cəzasını alır və tövbə yolu ilə səhvini düzəldir.

## Nəticə / *Conclusion*

Hekayədən əvvəl təqdim edilmiş "Əkinçilər dənələri ona görə becərib bəsləyirlər ki, bir gün gələr onun barını yeyərlər" beyti nəql olunan əhvalatın məzmununu doğruldur. Bununla belə, qoca əkinçinin Allaha sadiqliyi elə bir dərəcədədir ki, onun bütün işləri və əməlləri bu sədaqət üzərində qurulur. Allaha sadiqliyn əvəzi isə Quran kəlamının tutumu ilə ölçüldükdə əməlin "barı" ilahi və din müqabilində düşünülməlidir. Nizami hekayənin təqdimində Quran üslubuna əsaslanaraq nəticəsini qabaqcadan ifadə etmişdir. Diqqət edilsə, Sad surəsinin 31-34-cü ayələrində Süleyman peyğəmbərlə bağlı məsələdən öncə belə xatırlamalar vardır: insanlar Quranın ayələrini düşünüb dərk etməli və ağıl sahibləri onlardan ibrət almalıdırlar... "Süleyman daim Allaha sığınan bir kimsə idi" (ayə 30). Atlara aludə olub Allahı unutması Quranda əks olunduğu kimi Nizaminin əsərində özünü bədii şəkildə ifadəsini tapmışdır. Şair "kicik qəhrəmanı" əkinçinin dililə Süleyman peyğəmbərin aludəçiliyinə toxunur və Tanrıya ümidi itirməməyi tövsiyə edir. Digər tərəfdən, böyük mütəfəkkir iqtibas, işarə, eyham kimi bədii istifadə vasitələrindən istifadə edərək anlamı çətin olan Quran ayəsinin təfsirində öz variantını təqdim etmişdir.

## Ədəbiyyat / *References*


1. Bəlaği C. Quran qissələri. Bakı, 1992.
2. Babayev X. Nizaminin "Xəmsə"sində Quran ayələri və qissə motivləri. Bakı, 1999.
3. Коран. Перевод с арабского и комментарии М.Н.Османова. Кум, (ИРИ). Москва, 1992 (rusca).
4. Qurani-Kərim.
5. Məmmədəliyev V. Ön söz. Qurani-Kərim. Bakı, 1991.
6. Nizami Gəncəvi. Kollyate "Xəmsə" Nizami. Motabeq nosxe-e təshin şode Vəhid Dəstgerdi, celde əvvəl. Tehran, 1374 h.ş. (farsca).
7. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Filoloji tərcümə, izahlar, şərhlər və lüğət. R.Əliyevindir. Bakı, 1981.
8. Səccadi, Seyid Əbdülhəmid.Qozidei əz təsir-e Quran dər nəzm-e farsi. Tehran, 1371 h.s. (farsca).
9. Təfsir və bəyan kəlimatil-Quran. Bağdad, 1983 (ərəbcə).






## Мотивы кысса в Коране как источник художественно-эстетического искусства в "Хамсэ" Низами


**Ханали Бабаев**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.



**Резюме.** В статье исследуется мотив веры в Аллаха и неустанного труда на основе рассказа о пророке Сулеймане в поэме "Сокровищнице тайн" Низами Гянджеви, искусно используемый великим поэтом. Низами с мудрой позиции представляет величие человека-труженика, приравниваемого им к величине пророка Сулеймана. В "Рассказе о Сулеймане и старом пахаре" Низами раскрыл вопрос о позиции твёрдой веры маленького героя – старого пахаря в противовес с подозрительностью и безнадёжностью пророка Сулеймана и воспел правильную и всепобеждающую черту человека простого труда. Наряду с показом художественно-эстетической сущности искусства, поэт предоставил пояснения к соответствующим аятам Корана.


**Ключевые слова:** повествование о пророке, пахарь, вера в бога, труд, маленький герой



Azərbaycan milli kitabxanası